| | |
|---|---|
| **Xəstəlik sinifi (XBT-10)** | **AB – Bəzi infeksion və parazitar xəstəliklər** |

| | |
|---|---|
| **İlkin versiyanın tərtibatçı (İSİM)** | **Kazımova Z.** |

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **A31.0** | ***Mycobacterium*** tərəfindən törədilən ağ ciyər infeksiyası<br>*Mycobacterium*<br>• *avium*<br>• *intracellulare* [Battey bacillus]<br>• *kansasii*<br>tərəfindən törədilən infeksiya |
| **A31.1** | ***Mycobacterium*** tərəfindən törədilən dəri infeksiyası<br>Buruli yarası<br>*Mycobacterium*<br>• *marinium*<br>• *ulcerans* tərəfiindən törədilən infeksiya |
| **A31.8** | ***Mycobacterium*** tərəfindən törədilən digər infeksiyalar |

## Müalicə

**Antibiotik terapiyasını** təyin edərkən seçim çoxkomponentli rejimlərin, dərmanların parenteral tətbiqinin və uzun kursların lehinə edilir.

Antibiotik seçimi patogenin növü nəzərə alınmaqla aparılır:

- MAC infeksiyası üçün: makrolidlər, vərəm əleyhinə preparatlar, aminoqlikozidlər;
- M.kansasii üçün: vərəm əleyhinə antibiotiklər, makrolidlər, sulfanilamidlər, aminoqlikozidlər, ftorxinolonlar;
- M.xenopi üçün: ansamisinlər, makrolidlər, ftorxinolonlar, aminoqlikozidlər;
- M. fortuitum üçün: ftorxinolonlar, sulfonamidlər, makrolidlər,

aminoqlikozidlər, sefalosporinlər;
- M. fortuitum, M. abscessus üçün: tetrasiklinlər, karbapenemlər və s.

### Patogenetik və simptomatik terapiya

Siqaretin dayandırılması, yaxşı qidalanma tövsiyə olunur.

Patogenetik müalicə bronxodilatatorların (oral, inhalyasiya, nebulizer terapiyası), mukoaktiv, immunotrop dərmanların təyin edilməsini nəzərdə tutur. Bronxial ağacın drenaj funksiyası qeyri-qənaətbəxş olarsa, sanitar bronkoskopiya göstərilir.

İltihabi prosesi azaltmaq üçün qeyri-steroid iltihab əleyhinə dərmanlar, qlükokortikoidlər, vitaminlər, antiaqreqantlar və antioksidanlar göstərilə bilər. Qeyri-dərman tədbirləri tənəffüs məşqləri, zərb masajı, oksigen terapiyası və fizioterapevtik prosedurları əhatə edir.

## Ədəbiyyat

https://www.krasotaimedicina.ru/diseases/zabolevanija_pulmonology/pulmonary-mycobacteriosis

https://www.rlsnet.ru/mkb/infekcii-vyzvannye-drugimi-mikobakteriyami-1815